BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2010*

# İQTİSADİYYAT

## İQTİSADİYYATIN QEYRİ-DÖVLƏT SEKTORUNDA MƏŞĞULLUĞUN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI

**F.Q.MUSAYEVA**
***Bakı Dövlət Universiteti***
***ferqane_80@mail.ru***

*Məqalədə geniş statistik materiallar əsasında qeyri-dövlət bölməsində məşğulluğun strukturu və dinamikasında baş verən dəyişikliklər təhlil olunur, kiçik və orta sahibkarlığın mövcud inkişaf vəziyyəti, məşğulluğun təmin olunmasındakı rolu və investisiya qoyuluşlarının makroiqtisadi səviyyədə məşğulluğa təsiri qiymətləndirilir. Müəllif qeyri-dövlət sektoru üzrə məşğulluğun səmərəliliyini qiymətləndirmək məqsədilə əhalinin nominal pul gəlirlərini və onun strukturunu, həmçinin orta aylıq əmək haqqı və onun dinamikasını geniş təhlil etmişdir.*

Qeyri-dövlət sektorunda məşğulluğun təmin olunmasında dövlət əsas iqtisadi subyekt kimi çıxış edir. Bu halda əmək bazarında dövlət işəgötürən subyekt kimi iştirak etməsə də, qeyri-dövlət bölməsində məşğulluğu və onun səmərəliliyinin artırılmasını stimullaşdıran institusional mühitin formalaşdırılmasını, o cümlədən təklif olunan iş qüvvəsi ilə mövcud iş yerlərinin sayının tarazlaşdırılmasını təmin edir. Dövlət vətəndaşın üzərinə işləmək vəzifəsini qoymadan, hər bir əmək qabiliyyətli şəxsə real iş təklif etmək vəzifəsini öz üzərinə götürmür, yalnız vətəndaşların səmərəli və sərbəst seçilmiş məşğulluğunun təmin edilməsinə köməklik göstərir. Qeyd etmək lazımdır ki, AR Konstitusiyasında (35 maddəsi), «Məşğulluq haqqında» AR qanununda (6.1 maddə) habelə, BƏT-in konvensiya (122 saylı) və tövsiyələrində tam, səmərəli və azad surətdə seçilmiş məşğulluğa yardım göstərilməsi dövlətin birinci dərəcəli vəzifəsi və onun sosial-iqtisadi siyasətinin ayrılmaz hissəsi kimi nəzərdən keçirilir. Bu siyasətin məqsədi isə işə başlamağa hazır olan və iş axtaranlar işin təmin edilməsindən; belə işin mümkün qədər səmərəli olmasından; irqindən, dinindən, siyasi baxışlarından, mənşəyindən, yaxud sosial vəziyyətindən asılı olmayaraq hər kəsin hazırlıq keçmək və yararlı olduğu işi yerinə yetirmək, vərdiş və qabiliyyətlərindən istifadə etmək üçün bərabər imkanlarının mövcudluğundan ibarətdir.

Respublikamızda işsizliyin aradan qaldırılması, məşğulluğun artırılması və əmək bazarının tənzimlənməsi üzrə zəruri qanunvericilik bazası yaradılmışdır. Əhalinin məşğulluğu sahəsində münasibətlər AR Prezidentinin 2 iyul 2001-ci il №170-IIQ saylı Fərmanı ilə təsdiq edilmiş «Məşğulluq haqqında» AR Qanunu, məşğulluq sahəsində dövlət siyasətini müəyyən edən digər qanunlar və normativ aktlarla tənzimlənir.

«Məşğulluq haqqında» AR Qanunun qəbul edilməsi ilə əmək münasibətləri

sahəsində mövcud olan müəyyən çatışmamazlıqlar aradan qaldırılsa da, qanunun özündən irəli gələn bir sıra ziddiyyətli məqamlar var. Belə ki, qanunun 3.02-ci maddəsinə görə «...mülkiyyətində torpaq payı olan kəslər məşğul hesab edilirlər». Məlum olduğu kimi, torpaq islahatları nəticəsində kənd yerlərində yaşayan əhalinin çox hissəsinə torpaq sahəsi paylanmışdır. Qanundan irəli gələn müddəaya əsasən sərəncamında torpaq sahəsi olan mülkiyyətçi öz şəxsi təsərrüfatında müstəqil çalışmaqla, özlərinin məşğulluğunu təmin etməlidirlər. Kənd yerlərində iş yerlərinin çatışmazlığı və yaranmış sosial-iqtisadi problemlər kənd əhalisinin, xüsusilə gənclərin xarici ölkələrə və respublikanın iri şəhərlərinə miqrasiya etməsinə səbəb olmuşdur. Qeyd edək ki, ölkədən miqrasiya edən vətəndaşların böyük hissəsi kənd əhalisinin payına düşür. Digər tərəfdən nəzərə almaq lazımdır ki, ölkədə infrastruktur sahələrinin zəif inkişafı, digər tərəfdən maliyyə vəsaitlərinin çatışmamazlığı (ölkə üzrə kənd təsərrüfatına 338.4 mln. manat investisiya qoyulmuşdur ki, bu da ümumi investisiyaların 3.7 %-ni təşkil edir) aqrar sektorun inkişaf imkanlarını məhdudlaşdırır. Bunun nəticəsidir ki, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən fərdi sahibkarların və müəssisələrin, həmçinin bu sahədə məşğul əhalinin sayı ilbəil azalır. Qeyd etmək lazımdır ki, fərdi sahibkarlıq və kənd təsərrüfatı müəssisələrində məşğul əhalinin ümumi məşğulluqda xüsusi çəkisi 0,8%, aqrar sektorda məşğulluqda isə 1,8% təşkil edir. Deməli hələ sərəncamında kiçik torpaq sahəsinin və yaxud vətəndaşın torpaq mülkiyyətçisi olması onun məşğulluğu kimi qiymətləndirilməməlidir.

Qanunda digər çatışmazlıq işsizlik statusu ilə bağlıdır. Belə ki, Qanunun 4.5-ci bölməsində ilk dəfə iş axtaranların işsiz statusu almaq hüququna malik olmadığı qeyd olunur (4, 5). Nəzərə almaq lazımdır ki, ilk dəfə iş axtaranların əksəriyyətini gənclər təşkil edir. 2003-cü ildə və 2005-ci illərdə BƏT-in (Beynəlxalq Əmək Təşkilatlarının) texniki yardımı ilə keçirilmiş əhalinin iqtisadi fəallığının seçmə müayinəsinin nəticələri göstərir ki, işsizlər arasında gənclərin xüsusi çəkisi üstünlük təşkil etmişdir. 2003-cü müayinə nəticəsində BƏT metodologiyasına müvafiq qeydə alınan işsizlərin sayı 404670 nəfər və bu işsizlərin tərkibində 15-29 yaş qrupları üzrə olan əhalinin xüsusi çəkisi 58,6% müəyyən edilmişdir. 2005-ci ildə isə işsizlərin sayı 363,8 min nəfər və bu işsizlər arasında gənclərin xüsusi çəkisi isə 60,5% təsbit edilmişdir. Təcrübə göstərir ki, işsizlik yalnız maddi itkilərə deyil, həmçinin cinayətə meylliliyə (xüsusilə gənclər arasında), ictimai-siyasi müvazinətin pozulmasına, dövlətə və iqtisadi sistemə olan inamın azalmasına və s. səbəb olur. Təsadüfi deyil ki, 2008-cı il üzrə cinayət törətmiş şəxslər içərisində 14-29 yaş qrupu üzrə şəxslərin xüsusi çəkisi 37%-ə qədərdir. Bu mənada işə düzəlməkdə çətinlik çəkən bu qrup insanların sosial müdafiəyə daha çox ehtiyacı vardır. Lakin onlara işsiz statusu verilmədiyindən uyğun olaraq da işsizlik müavinəti ödənilmir. Hesab edirik ki, dövlətin bu vətəndaşların işsizliyi dövründə sosial müdafiəsini təmin etməməsi (ən azından ölkə üzrə yaşayış minimumu səviyyəsində) onlar arasında cinayətə meylliliyi artırır. Yuxarıda sadalananları, həmçinin ilk dəfə iş axtaranların əksəriyyətinin gənclər təşkil etdiyini nəzərə alsaq, onlara işsiz statusunun və işsizlik müavinətinin verilməməsi qanunda olan boşluq kimi qiymətləndirilə bilər. Bu mənada əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının artırılması, xüsusilə qeyri-dövlət sektorunda məşğulluğun artırılması sahəsində qarşıda duran mühüm məsələlərdən biri məşğulluq sahəsində mövcud olan qanunvericilik bazasının təkmilləşdirilməsi, onun bazar iqtisadiyyatının və beynəlxalq hüquq normalarının tələblərinə uyğunlaşdırılmasıdır.

Ölkədə sahibkarlığın inkişafı üçün zəruri mühitin yaradılması, özəlləşdirmə ilə

bağlı tədbirlərin və torpaq islahatlarının həyata keçirilməsi nəticəsində 2008-ci il üzrə qeyri-dövlət bölməsinin xüsusi çəkisi məşğul əhalinin sayında 69,3%-dək yüksəlmişdir. Aparılmış təhlildən gəldiyimiz qənaətə görə qeyri-dövlət bölməsində məşğulluq sahəsində həlli vacib olan bir sıra mühüm məsələlər qalmaqdadır. Bu sahədə əsas problemlərdən biri qeyri-dövlət bölməsi üzrə məşğul olanların mülkiyyət növləri üzrə bölgüsündədir. Bu sektor üzrə ötən il ərzində məşğul əhalinin 55,2%-i fərdi mülkiyyətin, 25,4%-i sərbəst məşğul əhalinin, 15,5%-i isə xüsusi mülkiyyətin payına düşmüşdür. Vacib bir məqama – fərdi və sərbəst məşğul əhali anlayışlarının mahiyyətinə diqqət yetirək. Belə ki, fərdi məşğul əhali adından da göründüyü kimi fərdi qaydada, yəni təkbaşına işləyən və muzdlu əməkdən istifadə etməyən fiziki şəxsdir: məsələn, paltar tikişi, bərbər xidməti və s. başa düşülür. Sərbəst məşğul əhali dedikdə, özünü məşğul əhali, yəni, əmək qabiliyyətli şəxslərin müstəqil surətdə özünü işlə təmin etməsi nəzərdə tutulur. Göründüyü kimi, hər iki qrupda məşğulların statusunda heç bir fərq yoxdur. Hər iki halda vətəndaş məşğulluğunu müstəqil surətdə seçir və təmin edir. Qeyd edək ki, 2007-ci ildən başlayaraq fərdi məşğul əhalinin statistik uçotu xüsusi bölmənin tərkibində aparılır. Fərdi və sərbəst məşğul əhalinin özünü məşğul əhali kimi bir qrupda statistik uçotunun aparılması, fikrimizcə, daha düzgün olardı.

Məşğul əhalinin tərkibində sərbəst və fərdi məşğulların, başqa cür desək, özünüməşğul əhalinin xüsusi çəkisi üstünlük təşkil etsə də, hesab edirik ki, onların əmək fəaliyyəti səmərəsizliklə və qeyri-məhsuldarlıqla xarakterizə olunur. Bildiyimiz kimi, kənd təsərrüfatı və ticarət sektorunda məşğul əhalinin əsas hissəsini fərdi məşğul əhali təşkil edir. Bununla əlaqədardır ki, kənd təsərrüfatı bölməsində bir məşğula düşən ÜDM 1415 manat (ölkə üzrə orta göstəricidən 6.6 dəfə azdır), ticarətdə isə uyğun göstərici 3486 manat (ölkə üzrə orta göstəricidən 2.7 dəfə) təşkil etmişdir. Digər tərəfdən ev təsərrüfatlarının adambaşına aylıq gəlirlərinin strukturunda özünüməşğulluqdan gələn gəlirlərin həcmi 2008-ci il üzrə 26 manat təşkil etmişdir. Bunun başlıca səbəblərindən biri özünüməşğulluğun hüquqi statusunu müəyyən edəcək, habelə inkişafını təmin edəcək normativ-hüquqi aktların işlənib hazırlanmamasıdır. Bu mənada fikrimizcə, başlıca diqqət özünüməşğulluğun inkişaf (iş vaxtından tam və səmərəli istifadəni, daha məhsuldar əmək fəaliyyətini təmin edəcək) etdirilməsinə zəmin yaradan və bunu nizama salan yeni qanunvericilik aktlarının işlənib hazırlanmasına və qəbuluna, habelə məşğul olanların tərkibində xüsusi mülkiyyətin və birgə müəssisələrin payının artırılmasına yönəldilməlidir.

Xüsusi və birgə müəssisələrin inkişafına yönəldiləcək tədbirlər məşğulların tərkibində muzdlu işçilərin sayının artımına şərait yaradacaqdır. Əmək Məcəlləsinə görə, muzdlu işçi işə götürənlə əmək müqaviləsi bağlayıb, Sosial Müdafiə Fondunda uçota dayanıb, vergi ödəyənlərə deyilir. 2000-ci illə müqayisədə 2008-ci ildə ölkədə muzdlu işçilərin 16% artaraq 1410,3 min nəfərə çatmış, ümumi məşğulluqda xüsusi çəkisi 34,8%-dək yüksəlmişdir (bax: cədvəl 1). Göründüyü kimi, məşğulların tərkibində öz hesabına məşğulların xüsusi çəkisi üstünlük təşkil edir. Yuxarıda qeyd edildiyi kimi, ölkədə 864 mindən çox iş yeri açılıb, məntiqlə muzdlu işçilərin sayı 2 milyon nəfəri keçməlidir. Digər tərəfdən yeni iş yerləri açılırsa, dövlət büdcəsinə ödənilən fiziki şəxslərin gəlir vergisi artmalıdır. Qeyd edək ki, təkcə 2008-ci il üzrə fiziki şəxslərin gəlir vergisi ümumi vergi daxilolmalarının 9.5 faizini təşkil edir. Muzdlu işçilərin mülkiyyət növləri üzrə strukturunda dövlət sektorunun xüsusi çəkisi üstünlük təşkil etdiyindən dövlət büdcəsinə ödənilən fiziki şəxslərin gəlir vergisinin

Cədvəl 1

Muzdlu işçilərin sayı (min nəfər)

| | Muzdlu işçilərin sayı | Məşğulların sayında muzdlu işçilərin xüsusi çəkisi, faizlə | Qeyri-dövlət sektorunda muzdlu işçilərin sayı | Qeyri-dövlət sektoru üzrə muzdlu işçilərin ölkə üzrə muzdluların tərkibində xüsusi çəkisi |
|---|---|---|---|---|
| 2000 | 1217.8 | 32,9 | 116.2 | 9,5 |
| 2001 | 1205 | 32,4 | 146.4 | 12,1 |
| 2002 | 1201.5 | 32,2 | 289.6 | 24,1 |
| 2003 | 1226.6 | 32,7 | 367 | 29,9 |
| 2004 | 1263.9 | 33,2 | 396.2 | 31,3 |
| 2005 | 1300.4 | 33,8 | 442.4 | 34,0 |
| 2006 | 1337.5 | 33,7 | 453.3 | 33,9 |
| 2007 | 1376 | 34,3 | 490.9 | 35,7 |
| 2008 | 1410.3 | 34,8 | 512.8 | 36,4 |

ən azı 50 faizi dövlət büdcəsindən maliyyələşən işçilər tərəfindən ödənilir. Yerdə qalan hissəsi isə daha çox xarici şirkətlər, Dövlət Neft Şirkəti, AZAL Dövlət Konserni kimi iri müəssisələrin payına düşür. Son illərdə qeyri-dövlət sektorunun inkişafı sahəsində həyata keçirilən islahatlar nəticəsində qeyri-dövlət sektoru üzrə muzdlu işçilərin sayı 4.4 dəfə artaraq 512.8 min nəfərə çatmışdır. Nəticədə muzdlu işçilərin strukturunda qeyri dövlət sektorunun xüsusi çəkisi 26.9 faiz bəndi artaraq 36.4%-ə yüksəlmişdir.

Mövcud durumu MDB ölkələri ilə müqayisə etsək, görərik ki, respublikamızda vəziyyət qənaətbəxş deyil. Belə ki, muzdlu işçilərin xüsusi çəkisinə görə ən aşağı həddi Azərbaycanda, ən yüksək həddi isə Belarusiya, Rusiya və Ukraynada qeydə alınmışdır.

Cədvəl 2

2007-ci il üzrə MDB ölkələri üzrə məşğulların sayı (mlyn. nəfər) və strukturu (faizlə)

| | Azərbaycan | Ermənistan | Belarusiya | Qazaxıstan | Qırğızıstan | Moldaviya | Rusiya | Tacikistan | Ukrayna |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | 4,01<br>**100** | 1,09<br>**100** | 4,48<br>**100** | 7,63<br>**100** | 2,15<br>**100** | 1,25<br>**100** | 70,8<br>**100** | 2,15<br>**100** | 20,91<br>**100** |
| Öz hesabına məşğullar<br>xüsusi çəkisi (%-lə) | 2,64<br>**65.7** | 0,55<br>**50.3** | 0,28<br>**6.3** | 2,66<br>**34.8** | 1,01<br>**47** | 0,42<br>**33.3** | 4,63<br>**6.5** | 1,08<br>**50.4** | 4,04<br>**19.3** |
| Muzdlu işçilər<br>xüsusi çəkisi (%-lə) | 1,38<br>**34.3** | 0,54<br>**49.7** | 4,2<br>**93.7** | 4,97<br>**65.2** | 0,11<br>**53** | 0,83<br>**66.7** | 66,18<br>**93.5** | 1,07<br>**49.6** | 16,87<br>**80.7** |

Qeyri-dövlət bölməsində muzdlu işçilərin sayının artırılması onun investisiya təminatı ilə sıx bağlıdır. Artıq qeyd edildiyi kimi, daxili yığım mənbələrinin məhdudluğu, o cümlədən 1994-cü ildən etibarən neft sektoru üzrə yaradılan əlverişli investisiya mühiti ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsinə zəmin

yaratmışdır. Bu gün ümumi bir qiymətləndirmə aparsaq, etiraf etməliyik ki, xarici investisiyaların Azərbaycan iqtisadiyyatına istər makro-, istərsə də mikro- səviyyədə müsbət təsirləri olmuşdur. Mikrosəviyyədə, hər şeydən öncə, onu göstərək ki, xarici investisiyalar istehsal və xidmət sahələrində keyfiyyət halının yüksəlməsinə və yeni mütərəqqi texnologiyaların yayılmasına böyük təsir etmişdir. Makrosəviyyədə təsirdən danışarkən onu qeyd edək ki, bu daha çox neft strategiyası nəticəsində ölkəyə böyük həcmli neft və qaz gəlirlərinin daxil olmasını təmin etmişdir.

Bir sıra tədqiqatçılar cəlb olunan investisiyaların əsasən neft sektoruna qoyulması ölkə iqtisadiyyatının birtərəfli inkişafını formalaşdırdığını göstərirlər. Lakin bir sıra xarici ölkələrin təcrübəsi göstərir ki, bir ölkə üzrə hər hansı bir və yaxud bir neçə sahənin inkişafı ümumi iqtisadi inkişafda lokomotiv funksiyanı yerinə yetirə bilir. Yəni, həmin lokomotiv sektorun inkişafı əlavə sahələrin inkişafına imkan yaradır. Bu gün Türkiyə turizm sahəsindəki müvəffəqiyyətinə görə dünyanın 12-ci ölkə statusunu almışdır. Mütəxəssislərin hesablamalarına görə Türkiyədə turizm sahəsinin inkişafı əlavə 36 sahənin inkişafında müstəsna rola malikdir. Ona görə hər bir dövlətin qarşısında duran başlıca məsələ lokomotiv funksiyasının daşıyıcısı olan sahə ilə digər sahələr arasında optimal balansı doğru müəyyənləşdirmək və onun yarada biləcəyi imkanlardan maksimum istifadə etməkdir. Lakin bir faktı da nəzərdən qaçırmaq olmaz ki, hal-hazırda dünyada neft, qaz və dağ-mədən sənayelərinə qoyulan xarici investisiyalar 50-dən çox inkişaf edən ölkənin hökuməti üçün mühüm gəlir mənbəyini təşkil edir. Bu ölkələrdə təqribən 3,5 milyard insan yaşayır, onların 1,5 milyardı gündə 2 ABŞ dollarından az gəlirlə yaşayır. Əgər bu investisiyalardan alınan gəlirlərdən səmərəli və nəzarətli şəkildə istifadə olunsaydı, onlar iqtisadi artım və yoxsulluğun azaldılmasında, əhalinin tam və səmərəli məşğulluğunun təmin edilməsində əsaslı rol oynaya bilərdi.

Fikrimizcə, neft sənayesinin inkişaf etdirilərək, dünya bazarlarına son məhsulun ixrac edilməsi daha effektlidir. Belə ki, neft sənayesinin inkişafı əsasında respublikamız neft-kimya, kimya sənayesi məhsullarının ixracatçısına çevrilə bilər. Neftlə əlaqədar bu sənaye sahələrinin inkişaf etdirilməsi ölkədə yeni iş yerlərini yaradılmasını təmin edə bilər. Bu mənada ixrac potensialının yüksəldilməsi və ixracın strukturunun yaxşılaşdırılması məqsədilə hazır məhsul istehsal edən kiçik sahibkarlara dövlət tərəfindən məqsədli maliyyə köməkliyinin göstərilməsi təmin edilməlidir. Digər tərəfdən hazır məhsul ixracına yönəldilmiş investisiya layihələrinin maliyyələşdirilməsi üçün alınan xarici kreditlərə dövlət təminatının verilməsi, vergi güzəştlərinin tətbiqi daha məqsədəuyğundur.

Əmək qabiliyyətli əhalinin tam və səmərəli məşğulluğu ölkədə əhalinin pul gəlirlərinin artımını və əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin edir. Həyata keçirilən iqtisadi islahatlar nəticəsində 2000-ci ilə nisbətdə əhalinin nominal gəlirləri təqribən 5 dəfə artaraq 2008-ci ildə 20,1 mlrd. manata çatmışdır. Bazar iqtisadiyyatının inkişaf etmiş ölkələrindən fərqli olaraq Azərbaycan Respublikasında pul gəlirlərinin strukturunda sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərin payı yüksəkdir. Bunun əsas səbəbi özünüməşğul əhalinin sayının çox və orta aylıq əmək haqqının aşağı olmasıdır. 2000-ci ildə əhalinin nominal pul gəlirlərinin tərkibində sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərin xüsusi çəkisi 52.2%, 2008-ci ildə isə 54.9%-ə bərabər olmuşdur. Göründüyü kimi sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərin yüksək çəkisi qeyri-dövlət bölməsinin inkişaf göstəricisi olsa da, gəlirlərin məşğul olanların arasında qeyri-bərabər bölgüsü deməkdir. Belə ki, ölkədə sahibkarlıq

fəaliyyəti ilə məşğul olan subyektlərin sayı kifayət qədər azlıq təşkil edir.

İnkişaf səviyyəsinə görə bir-birindən fərqlənən ölkələr üzrə BMT İnkişaf Proqramının apardığı araşdırmaların təhlili göstərir ki, əhalinin pul gəlirlərinin tərkibində əmək gəlirlərinin xüsusi çəkisinin 50%-dən az olduğu halda bu ölkələrdə məşğulluq səviyyəsi aşağı olur. Son illərdə minimum əmək haqqının və büdcə təşkilatlarında əmək haqlarının artırılması ilə bağlı ölkə Prezidentinin imzaladığı sərəncamlar əhalinin pul gəlirlərində əmək ödənişlərinin xüsusi çəkisinin artmasına təsir göstərmişdir. Belə ki, 2000-ci ilə nisbətdə əmək haqqı gəlirləri 5.8 dəfə artaraq 2008-ci ildə 5,9 mlrd. manata çatmış, əhali gəlirlərinin strukturunda əmək haqqı gəlirlərinin xüsusi çəkisi 2000-ci ildəki 25.2%-dən 2008-ci ildə 29.6%-ə yüksəlmişdir. Lakin bununla belə, əmək haqqı xərclərinin ÜDM-də xüsusi çəkisi 2000-ci ildəki 21.6%-dən azalaraq 2008-cı ildə isə 15.6%-ə təşkil etmişdir. Müqayisə üçün bildirək ki, inkişaf etmiş ölkələrdə əmək haqqının ödənilməsinə çəkilən xərclərin ÜDM-də xüsusi çəkisi 60-70%-nə bərabər olur (6, 185).

AR Əmək Məcəlləsinin 154-cü maddəsində «əmək haqqı» müvafiq iş vaxtı ərzində əmək funksiyasını yerinə yetirmək üçün əmək müqaviləsi ilə müəyyən edilmiş, işçinin gördüyü işə (göstərdiyi xidmətlərə) görə işəgötürən tərəfindən pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənclərin məcmusu kimi şərh edilib. AR tərəfindən ratifikasiya edilmiş BƏT-in «Əmək haqqının mühafizəsi» haqqında 85 saylı, «Minimum əmək haqqının müəyyən edilməsi» haqqında 135 saylı Tövsiyələrində işçilərə ləyaqətli əmək haqqının ödənilməsi tələblərinin yerinə yetirilməsi əmək haqqı siyasətinin başlıca istiqaməti kimi müəyyən olunmuşdur. 135 saylı Tövsiyənin I bölməsində göstərilir ki, «minimum əmək haqqının» müəyyən edilməsi əməkçilərin və onların ailələrinin yoxsulluğuna qarşı mübarizəyə və ehtiyaclarının təmin edilməsinə yönəldilən siyasətin əsas ünsürlərindən biri olmalıdır (1, 390). Dolayısı ilə ölkədə əmək haqqı səviyyəsi məşğulların yaşayış minimumunu təmin etməlidir. Analoji tələblər AR Avropa Şurasının üzvü olmaqla ratifikasiya etdiyi Avropa Sosial Xartiyasında da öz əksini tapmışdır. Xartiyanın tətbiqi ilə əlaqədar AŞ-da qəbul edilmiş «60 qayda»sına xüsusi ilə diqqət yetirilməlidir. Bu qaydaya əsasən ləyaqətli əmək haqqı səviyyəsi dedikdə, ölkə üzrə orta aylıq əmək haqqının 60%-dən az olmayan, eyni zamanda mütləq yoxsulluq həddindən yüksək olan əmək haqqı təminatı başa düşülür. Bu qaydaya uyğun gəlməyən əmək haqqı səviyyəsi Xartiyanın prinsiplərinə uyğun hesab edilmir.

Düzdür, qeyri-dövlət sektoru üzrə orta aylıq nominal əmək haqqı göstəricisi həm ölkə üzrə, həm də dövlət sektoru üzrə orta aylıq əmək haqqı göstəricisindən yüksəkdir. Belə ki, 2008-ci ildə qeyri-dövlət bölməsi üzrə nominal əmək haqqı 341.3 manata bərabər olmuşdur ki, bu da ölkə üzrə orta göstəricidən 24%, dövlət bölməsi üzrə orta göstəricidən 45% yüksəkdir.

Cədvəl 3

**Dövlət və qeyri-dövlət bölməsi üzrə orta aylıq əmək haqqı**

| | 2000 | 2002 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2000-ci ilə nisbətdə artim, dəfə |
|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | **44.3** | **63.1** | **99.4** | **123.6** | **149** | **215.8** | **274.4** | **6** |
| **Dövlət** | **38.5** | **43** | **64.4** | **89.1** | **111.4** | **171.9** | **235.8** | **6** |
| **Qeyri-dövlət** | **83.7** | **122.2** | **175.3** | **191.9** | **221** | **296.5** | **341.3** | **4** |

Qeyri-dövlət bölməsində əmək haqqının nisbətən yüksək səviyyəsi əhalinin həyat səviyyəsinin yaxşılaşmasına, birbaşa və dolayısı olaraq isə əhalinin sosial müdafiəsi sisteminin müvəffəqiyyətinə təkan verir. Lakin nəzərə almaq lazımdır ki, əmək haqqı muzdlu işçilərə hesablanır. Qeyri-dövlət bölməsində çalışan muzdlu işçilər bu bölmə üzrə məşğul olanların 2000-ci ildə 4.7%-ni, 2008-ci ildə isə 18.2%-ni əhatə etmişdir. Digər tərəfdən, qeyri-dövlət bölməsi üzrə hesablanmış əmək haqqı fondunun 2000-ci ildə 47.5%-i, 2008-ci ildə isə 37.1% xarici və müştərək müəssisələrin payına düşmüşdür. Xarici və müştərək müəssisələrin bu bölmə üzrə ümumi məşğulluqda xüsusi çəkisi isə 2000-ci ildə 1.3%, 2008-ci ildə isə 2.4%-ə bərabər olmuşdur. Göründüyü kimi, qeyri-dövlət bölməsində orta aylıq əmək haqqının yüksək səviyyəsi xarici və müştərək müəssisələrin fəaliyyəti ilə izah olunur. Bu müəssisələr hasilat, maliyyə fəaliyyəti, daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmətin göstərilməsi sahələrində fəaliyyət göstərdiyindən ən yüksək əmək haqqı bu sahələrdə qeydə alınmışdır. Deməк orta aylıq əmək haqqının nisbətən yüksək səviyyəsi qeyri-dövlət sektorunda məşğulluğun səmərəliliyi kimi qiymətləndirməli deyil.

Qeyri-dövlət bölməsi üzrə ən aşağı əmək haqqı kənd təsərrüfatı və balıqçılıq sahəsində - 95.5 manat, ən yüksək əmək haqqı isə mədənçıxarma sənayesində – 1669 manat qeydə alınmışdır.

**Qrafik 1**




1. Kənd təsərrüfatı və balıqçılıq.
2. Mədənçıxarma sənayesi.
3. Emal sənayesi.
4. Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi.
5. Tikinti və nəqliyyat.
6. Topdan və pərakəndə ticarət: avtomobillərin, məişət və şəxsi istifadə əşyalarının təmiri.
7. Mehmanxana və restoranlarla xidmətin göstərilməsi.
8. Maliyyə fəaliyyəti.
9. Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmətin göstərilməsi.
10. Xidmət sferası (dövlət idarəetməsi və müdafiə, sosial təminatın vəzifələri; təhsil; səhiyyə və sosial xidmətlərin göstərilməsi; digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi).

Mədənçıxarma sənayesində qeydə alınmış orta aylıq nominal əmək haqqı ölkə üzrə orta göstəricidən 6 dəfə, qeyri-dövlət sektoru üzrə orta göstəricidən isə 5 dəfə yüksəkdir. Bu sahədə əmək haqqının yüksək səviyyəsi neft sektorunda çoxlu sayda xarici və birgə müəssisələrin fəaliyyəti ilə izah olunur. Lakin bununla belə qeyri-dövlət bölməsində bəzi iqtisadi fəaliyyət növləri üzrə orta aylıq əmək haqqı göstəricisi nəinki, ölkə üzrə orta göstəricidən, həmçinin yaşayış minimumundan da aşağıdır. Kənd təsərrüfatı üzrə qeydə alınmış orta aylıq nominal əmək haqqı (95.5 manat) ölkə üzrə orta göstəricidən də aşağıdır. Bu qiymətləndirmələr kənd təsərrüfatı sahəsində böyük sayda «işləyən yoxsulların» olmasından və yaxud əhali məşğulluğunun qeyri-məhsuldarlığı və səmərəsizliyindən xəbər verir.

Bu da ratifikasiya edilmiş BƏT-in konvensiya və tövsiyələrinə həmçinin Avropa Sosial Xartiyasının tələblərinə ziddir. Emal sənayesində qeydə alınmış göstərici qeyri-dövlət bölməsində qeydə alınmış orta göstəricidən 23% (51.4 manat) azlıq təşkil edir. Bu isə onu göstərir ki, bu sahələr üzrə ölkəmizdə fəaliyyət göstərən müəssisələrin əsaslı hissəsi qeyri-məhsuldarlığı ilə səciyyələnir. Muzdlu işçilərin əsaslı hissəsinin çalışdığı topdan və pərakəndə ticarət sferasında orta aylıq nominal əmək haqqı qeyri-dövlət bölməsi üzrə müəyyən edilmiş orta göstəricidən 31% ( 64.4 manat) aşağıdır. Buna görə də qeyri-dövlət bölməsinin bir sıra sahələrində əmək haqqının artırılması (əmək haqqının alıcılıq qabiliyyətinin istehlak qiymətlərinin artımını üstələməsi əsasında) və mərhələlərlə qeyri-dövlət bölməsi üzrə orta göstərici səviyyəsinə çatdırılması təmin edilməlidir.

Azərbaycanı MDB ölkələri üzrə müqayisə etsək müəyyən edərik ki, orta aylıq əmək haqqı səviyyəsinə görə 2000-ci ildə 4-cü, 2007-ci il üzrə 5-ci yerdə durur. 2007-ci ildə ən yüksək göstərici Rusiyada (532 dollar), ən aşağı göstərici isə Tacikistanda (47 dollar) müəyyən olunmuşdur. Tədqiq olunan dövrdə orta aylıq əmək haqqının ən yüksək artım səviyyəsi Rusiyada (6.7 dəfə), ən aşağı səviyyə isə Qırğızıstanda (4.1 dəfə) qeydə alınıb.

**Cədvəl 4**

**MDB ölkələri üzrə orta aylıq əmək haqqı (dollar)**

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 49.5 | 55.8 | 64.9 | 78.8 | 101.2 | 130.7 | 166.8 | 251.5 |
| Ermənistan | 42.1 | 44.1 | 47.7 | 60.1 | 81.4 | 113.7 | 149.7 | 216.9 |
| Belarusiya | 73.6 | 86.6 | 104.9 | 120.8 | 160.6 | 215.2 | 271.2 | 323 |
| Gürcüstan | 36.5 | 45.6 | 51.7 | 58.5 | 81.8 | 112.8 | 156.4 | - |
| Qazaxıstan | 101.1 | 117.9 | 132.6 | 154.6 | 208.3 | 256.3 | 323.5 | 428.2 |
| Qırğızıstan | 25.7 | 30 | 35.9 | 43.8 | 52.5 | 63.7 | 81.4 | 106.4 |
| Moldaviya | 32.8 | 42.3 | 51.1 | 63.9 | 89.5 | 104.7 | 129.2 | 170.2 |
| Rusiya | 79 | 111.1 | 139.1 | 179.2 | 234 | 302.5 | 391 | 531.6 |
| Tacikistan | 8.5 | 9.9 | 11.8 | 14.6 | 20.8 | 26.8 | 35.2 | 47.4 |
| Özbəkistan | - | 39.3 | 39.3 | 41.3 | 52.2 | - | - | - |
| Ukrayna | 42.3 | 57.9 | 70.6 | 86.7 | 110.8 | 157.3 | 206.2 | 267.5 |

Dövlətin məşğulluq siyasətinin mühüm istiqamətini iqtisadiyyatın qeyri-dövlət bölməsində əmək qanunvericiliyi normalarına, yəni işçilərlə işəgötürənlər arasında əmək müqaviləsinin bağlanması və onun ləğv edilməsi, işçilər üçün müvafiq şəraitin yaradılması, riayət olunmasına nəzarətin gücləndirilməsi təşkil etməlidir. Dövlət

bölməsindən fərqli olaraq qeyri-dövlət sektorunda işçilərlə əmək münasibətlərini rəsmiləşdirməyən işəgötürənlərin qeyri-leqal fəaliyyətinə daha çox rast gəlinir. Bu isə məşğul əhalinin bir hissəsinin gizli iqtisadiyyatın subyektinə çevrilməsinə səbəb olur. Müasir dövrdə əmtəə və xidmətlərin istehsalında, yeni iş yerlərinin açılmasında, iqtisadi fəaliyyətlə məşğul olan əhalinin gəlir əldə edilməsində qeyri-formal bölmə mühüm rol oynayır. Bu problemlə inkişaf etməkdə olan ölkələrlə yanaşı, inkişaf etmiş ölkələr də qarşılaşır. Dünya Bankının qiymətləndirmələrinə görə adambaşına düşən orta gəlir səviyyəsi aşağı olan ölkələrdə ÜDM-in (Ümumdaxili məhsul) 40%-i, yüksək olan ölkələrdə isə 17%-i gizli iqtisadiyyatın payına düşür. Pərakəndə satış, tikinti və bu kimi bəzi sahələrdə məşğul olanların 80%-i qeyri-leqal işləyir (16, 6). Bəzi ekspertlərin qiymətləndirmələrinə görə, təkcə OESD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) ölkələri üzrə gizli iqtisadiyyatın və bu sektorda məşğul olanların sayında təqribən 2 dəfə artım olmuşdur. Təkcə əsrin sonlarında OESD ölkələrinin gizli iqtisadiyyatında təqribən 35 mln. nəfər çalışmışdır. Tədqiq olunan son 20 il ərzində isə Almaniyada 8-12%-dən 22%-dək, Danimarkada 8%-dən 15%-dək, Fransada 6%-dən 12%-dək artmışdır (6, 31). Qeyri-formal bölmədə işləyənə nəzərdən keçirilən dövrdə məşğulluq statusundan, əsas və ya əlavə iş yerinin olmasından asılı olmayaraq bu bölmənin hər hansı bir müəssisəsində işləyən şəxslərə aid edilir. Bu bölmədə əmək münasibətləri əmək qanunvericiliyi ilə, sosial müdafiəyə dair normativ hüquqi aktlarla və yaxud vergi qanunvericiliyi ilə tənzimlənmir. Bir sıra ekspertlərin qiymətləndirmələrinə görə gizli iqtisadiyyat iş yerlərinin yaradılmasına və sosial gərginliyin aradan qaldırılmasına yardım göstərir. Onların fikrincə, sosial problem kimi gizli iqtisadiyyat ixtisassız fəhlələr üçün iş yerləri yaratmağa və işsizlik səviyyəsinin azaldılmasına imkan verir. Bu ekspertlərin proqnozlarına görə vaxt ötdükcə iqtisadiyyatda gizli iqtisadiyyatın payı azalacaq. MCKinsey Global İnstitute (MGI) təşkilatının tədqiqatları bu təsəvvürlərin yanlışlığını sübut etdi. Bu tədqiqatların nəticəsi sübut etdi ki, qeyri-rəsmi iqtisadiyyatın payı nəinki azalmır, hətta artır. MGI ekspertləri son on ildə Rusiya, Braziliya, Hindistan, Polşa, Portuqaliya və Türkiyə daxil olmaqla dünyanın bir çox ölkələrinin müxtəlif sahələrində gizli iqtisadiyyatı araşdırıblar. Bu tədqiqatlar göstərib ki, vergi ödəməməklə və hüquq normalarını pozmaqla bu şirkətlər bazarda digər iqtisadi subyektlərin bazar paylarının artmasına mane olur. Bununla da əmək məhsuldarlığının səviyyəsinə və iqtisadi artıma mənfi təsir göstərir (2, 6).

Azərbaycan iqtisadiyyatı üçün qeyri-formal bölmənin və qeyri-formal məşğulluğun inkişafı səciyyəvidir. Əmək fəaliyyəti ilə məşğul olan əhalinin dəqiq uçotu əmək bazarında cari meyllərin və dəyişikliklərin müşahidəsi, o cümlədən makroiqtisadi təhlil və proqnozlar üçün mühüm əhəmiyyət kəsb edir. Məhz bu məqsədlə, ARDSK (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi) 2005-ci may ayının 30-dan iyun aynın 10-dək iqtisadiyyatın qeyri-formal bölməsində məşğul olanların sayı və gəlirləri haqqında statistik seçmə müayinəsini keçirmişdir. Müayinənin yekunları göstərir ki, qeyri-formal bölmədə 186,3 min nəfər əmək fəaliyyəti ilə məşğul olmuşdur ki, bu, məşğul əhalinin 14%-i dövlət sektorunun, 86%-i isə qeyri-dövlət sektorunun payına düşür.

Qeyri-dövlət bölməsində dövlət sektoruna nisbətən məşğul olanların Əmək Məcəlləsi ilə müəyyən edilmiş bir sıra hüquqlarının pozulması hallarına daha çox rast gəlinir. Belə ki, işçilərin bir qismi üçün həftəlik iş vaxtı normadan yüksək olur, işəgötürən tərəfindən işçiyə əlverişli iş şəraiti yaradılmır və ödənişsiz məzuniyyət

verilmir. Əmək Məcəlləsinin 89 saylı maddəsində müəyyən edilmişdir ki, işçilərin normal iş vaxtının müddəti 8 saatdan, həftəlik normal iş vaxtının müddəti 40 saatdan artıq müəyyən edilə bilməz. Belə ki, qeyri-formal bölmədə məşğul əhalinin 31,4%-ni 41-50 saat işləyənlər, 36,7%-ni isə 51 və artıq saat işləyənlər təşkil edir. Bunun başlıca səbəbi ölkədə səmərəli məşğulluğun təmin edilməsi imkanlarının, iş qüvvəsinin qiymətinin – əmək haqqının aşağı səviyyəsi ilə izah olunur. Normadan yüksək həftəlik iş vaxtı isə əlavə iş yerlərinin yaradılması imkanlarını məhdudlaşdırır. 2003-cü ildə aparılmış seçmə müayinə nəticəsində məşğulların 47,3%-nin həftəlik normal iş vaxtı müddəti 18,2%-nin normadan aşağı, 33,7%-nin normadan yüksək olduğu aşkar edilmişdir. Həftədə 51 və daha artıq işləyənlərin xüsusi çəkisi tikintidə (15,2%), topdan və pərakəndə ticarətdə, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmirində (15,9%), mehmanxanalarda və restoranlarda (38,2%), nəqliyyat, anbar təsərrüfatında və rabitədə (18,2%) daha çox olmuşdur. Seçmə müayinənin nəticələrinin təhlili əsasında C.B.Quliyev göstərmişdir ki, ölkə üzrə məşğulluğun təmin edilməsində növbəlik əmsalının artırılması heç də yeni iş yerlərinin yaradılmasından az əhəmiyyətli deyildir. Hesablamalar nəticəsində müəllif belə qənaətə gəlmişdir ki, yuxarıda sadalanan fəaliyyət növləri iki növbəli iş rejiminin tətbiqi əlavə 160 min nəfərin, ölkə üzrə isə 220 min nəfərin əlavə işə cəlb edilməsinə və məşğulluq səviyyəsinin xeyli artırılmasına imkan verərdi (3, 107).

Bundan əlavə işəgötürənlər tərəfindən işləyənlərin 37,4%-i üçün heç bir sosial ayırmalar ödənməmiş, işləyənlərin haqqı ödənilən illik məzuniyyət hüququ, nə də xəstəliyə görə məzuniyyət hüququ olmamışdır. Bu isə BƏT-in ratifikasiya edilmiş «Ödənişli illik məzuniyyətlər haqqında» 47 saylı tövsiyəsinin müddəalarına ziddir. İşəgötürənlər tərəfindən heç bir sosial ödənişlərin ödənilməməsi Sosial Müdafiə Fondunun vəsaitlərinin azlığına səbəb olmaqla yanaşı, qeyri-formal münasibətlərə cəlb olunmuş vətəndaşların istər cari, istərsə də gələcəkdə sosial müdafiəsini zəiflədir. Buna görə həyata keçirilən sosial siyasət əmək qanunvericiliyinə əməl olunmasına nəzarətin gücləndirilməsini və əmək müqaviləsi olmadan əmək fəaliyyətinə cəlb olunan işçilərin əmək fəaliyyətinin leqallaşdırılmasını təmin etməlidir.

## ƏDƏBİYYAT


1. Beynəlxalq Əmək Təşkilatı Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş Konvensiyalar və Tövsiyələr. Bakı: Səda, 1996, 633 s.
2. Farrel D. Qeyri-rəsmi iqtisadiyyatın gizli təhlükələri // Koalisiya (Azərbaycanda iqtisadi islahatlar uğrunda), 2005, № 9 (21), s. 6-16
3. Quliyev C.B. Bazar münasibətləri şəraitində Azərbaycanda əhali məşğulluğunun təmin edilməsində uğurlar, reallıqlar və problemlər / Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsində: uğurlar, problemlər, təkliflər mövzusuna həsr olunmuş elmi-praktiki konfransın materialları. Bakı, 2006, s. 93-110
4. Məşğulluq haqqında normativ sənədlər toplusu. B.: Azərbaycan Milli Ensiklopediyası NPB, 2002, 74 s.
5. Азизова Г.А. Рынок труда Азербайджана. Баку: Элм, 2005, 303 с.
6. Зибарев Д. Основные изменения в динамике и структуре занятости населения в условиях трансформации экономики // журн. Человек и труд, №12, 2006, с. 31-35

## ПУТИ РОСТА ЭФФЕКТИВНОСТИ ЗАНЯТОСТИ В НЕГОСУДАРСТВЕННОМ СЕКТОРЕ ЭКОНОМИКИ

**Ф.Г.МУСАЕВА**

**РЕЗЮМЕ**

В статье исследуются вопросы повышения эффективности занятости в негосударственном секторе, пути совершенствование регулирующих функций государство в данной сфере. Здесь рассматриваются структура занятости по формам собственности и направления ее совершенствование. Автор определяет направление эффективной занятости в негосударственном секторе, анализирует существующее законодательство, подчеркивает роль среднего в обеспечении занятости, отмечает необходимость инвестиционного обеспечение для развития не государственного сектора.

## WAYS OF INCREASING EFFICIENCY OF EMPLOYMENT IN NON-STATE SECTOR OF ECONOMY

**F.G.MUSAYEVA**

**SUMMARY**

The article analyzes issues of increasing efficiency of employment in non-state sector of economy as well as ways of enhancing regulative functions of state in this sphere. The paper deals with the structure of employment by forms of ownership and the directions of its improvement. The author reveals the directions of effective employment in non-state sector of economy and analyzes the legislation in force. She also underlines the role of medium business in job security and highlights the necessity for the allocation of investment resources for the development of non-state sector.